Xalq Sığorta

“Xalq Sığorta”ASC-nin
Direktorlar Şurasının
22 dekabr 2025-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir
(Protokol № 31)

**Direktorlar Şurasının sədri**

**A.M.Məmmədli** ______________
M.Y.

# “Xalq Sığorta” ASC-nin

# Məxfilik Bəyannaməsi

Sənədin nömrəsi: XS-MB/001

**2025**

**MÜNDƏRİCAT**

1. **Giriş** .......... 3
2. **Əsas anlayışlar** .......... 3
3. **İnformasiyanın toplanması** .......... 3
4. **İnformasiyanın emal və işlənilmə məqsədləri** .......... 4
5. **İnformasiyanın yayılması, verilməsi və ya ötürülməsi** .......... 5
6. **İnformasiyanın saxlanılması və məhv edilməsi** .......... 5
7. **İnformasiyanın mühafizəsi** .......... 6
8. **İnformasiya sahibinin hüquqları** .......... 6
9. **Yekun** .......... 6

## 1. Giriş

1.1. “Xalq Sığorta” ASC-nin (bundan sonra Şirkət) “Məxfilik bəyannaməsi” (bundan sonra Bəyannamə) Şirkətin təqdim etdiyi xidmətlərdən istifadə zamanı həssas məlumatlarının toplanılmasının, işlənilməsinin məqsədlərini, onların mühafizəsinin ümumi prinsiplərini, informasiyanın verilməsi və ötürülməsi qaydalarını, bu prosesdə iştirak edən şəxslərin hüquqlarını, vəzifələrini və məsuliyyətinin əsaslarını müəyyən edir, habelə əsas insan və vətəndaş hüquqlarını və azadlıqlarını müdafiə edir.

## 2. Əsas anlayışlar

2.1. İnformasiya texnologiyaları - informasiya proseslərinin avtomatlaşdırılmış qaydada icrası üçün istifadə edilən proqramlar, sistemlər və ya avadanlıqlar;
2.2. İnformasiya sistemi – informasiya texnologiyaları və sənədlərinin təşkilati və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə edilməklə, nizamlanmış məcmusu;
2.3. İstifadəçi – informasiya sistemində giriş hüququ olan müştərilər;
2.4. İnformasiya - yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar;
2.5. Həssas informasiya – fiziki və hüquqi şəxslərə, habelə milli təhlükəsizliyə potensial mənfi təsirləri səbəbilə icazəsiz işlənmədən, o cümlədən daxil olmadan, dəyişdirilmədən və ya açıqlanmadan mühafizə edilməli informasiya (məsələn, həssas ödəniş məlumatları, fərdi məlumatlar, dövlət sirri, kommersiya sirri, bank sirri, sığorta sirri və digər konfidensial məlumatlar);
2.6. İnformasiyanın toplanılması — informasiyanın qanuna uyğun olaraq əldə edilməsi;
2.7. İnformasiyanın işlənilməsi — informasiya üzərində aparılan əməliyyatlar (informasiyanın yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanması, ötürülməsi, məhv edilməsi);
2.8. İnformasiyanın verilməsi — informasiyanın qanunvericiliklə müəyyən edilmiş qaydada sorğu əsasında maddi daşıyıcılarla və ya informasiya texnologiyaları vasitəsilə istifadəçilərə təqdim edilməsi;
2.9. İnformasiyanın transsərhəd ötürülməsi — informasiyanın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət sərhədindən əlaqədar beynəlxalq təşkilatlara, başqa ölkələrin dövlət və ya yerli özünüidarə orqanlarına, hüquqi və ya fiziki şəxslərinə verilməsi;
2.10. İnformasiyanın məhv edilməsi — informasiya sistemində informasiyanın silinməsi, məzmununun sonradan bərpa edilməsi mümkün olmayan vəziyyətə salınması və ya fərdi məlumatlar olan maddi daşıyıcıların məhv edilməsi.

## 3. İnformasiyanın toplanması

3.1. İstifadəçinin Şirkətə məxsus informasiya sistemləri vasitəsilə təmin ediləcək elektron xidmətlərdən istifadəsi ilə əlaqəli aşağıdakı informasiyalar hazırki Bəyannamə ilə müəyyən olunmuş qaydada və əsaslarla toplana, istifadə və emal edilə bilər:

- İstifadəçinin giriş məlumatları;

- əlaqə məlumatları, o cümlədən telefon nömrəsi, e-poçt, poçt indeksi və ünvan;
- Şirkət tərəfindən göndəriləcək bildirişləri (e-poçt, SMS, pop-up və digər) almaq üçün təqdim olunmuş digər əlaqələndirici məlumatlar (mobil nömrə, e-poçt və digər vasitələrlə);
- Şirkətə məxsus informasiya sistemlərinin istifadəsi ilə əlaqədar olaraq, lokasiya məlumatı, IP ünvanı, şəbəkə interfeysləri, cihaz növü və modeli və bununla məhdudlaşmayaraq cihazdan alınan digər məlumatlar;
- Şirkətə məxsus informasiya sistemlərindən istifadə zamanı sessiya müddəti keçmiş və ya dayandırılmış elektron xidmət üzrə doldurulmuş elektron formanı, səhifəni və ya xidmət mərhələsini bərpa etmək (yenidən səhifəyə geri dönüş etdikdə xidməti və ya elektron formanı (blankı) qalınan yerdən davam etdirə bilmək üçün);
- xüsusi funksionallıqların təmin edilməsi (istifadəçi təcrübəsini yaxşılaşdırmaq, yerə əsaslanan və multimedia funksiyalarını aktivləşdirmək), həmçinin Şirkətə məxsus informasiya sistemlərinin düzgün istifadəsini təmin etmək məqsədilə cihaz icazələri (coğrafi yerləşmə, audio və video, kamera girişi və yaddaşa giriş icazəsi) vasitəsilə toplanan məlumatlar;
- istifadəçinin Şirkətin təqdim etdiyi xidmətlərə və ya məhsullara maraq göstərərək və ya digər səbəblərdən könüllü olaraq təqdim etdiyi məlumatlar.

3.2. Şəxs barəsində müvafiq dövlət orqanları, maliyyə bazarlarına nəzarət orqanı, İcbari Sığorta Bürosu, habelə bu kimi digər elektron informasiya daşıyıcılarında yerləşdirilmiş və ötürülməsi qanunvericiliklə qadağan olunmayan informasiya da Şirkət tərəfindən toplanıla bilər.

3.3. Bu Bəyannamənin 3.1 və 3.2-ci bəndlərində müəyyən edilmiş hallar da daxil olmaqla, şəxsin özünün yazılı təqdim etdiyi məlumatlar, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada fərdi məlumatların məcburi şəkildə toplanılması və işlənilməsi halları istisna olmaqla, hər hansı şəxs barəsində fərdi məlumatların toplanılmasına və işlənilməsinə yalnız subyekt tərəfindən verilmiş yazılı, o cümlədən gücləndirilmiş elektron imzalı elektron sənəd formasında razılıq əsasında yol verilir.

## 4. İnformasiyanın emal və işlənilmə məqsədləri

4.1. Toplanan informasiya aşağıdakı məqsədlər üçün emal və ya istifadə edilir:

4.1.1. Xidmətlərin göstərilməsi - Şirkət tərəfindən xidmətlərin təqdim olunması (sığorta xidmətlərinin göstərilməsi, müraciətlərin araşdırılması, cavablandırılması və s.);

4.1.2. Xidmətlərin dəstəklənməsi və təkmilləşdirilməsi - Şirkət tərəfindən təqdim olunan xidmətlərin düzgün və dayanıqlı şəkildə işləməsinin təmin edilməsi (xidmət dayanmalarının izlənilməsi, bildirilən nasazlıqların aradan qaldırılması və s.);

4.1.3. Yeni xidmətlərin hazırlanması - mövcud xidmətlərdən toplanan informasiya əsasında yeni məhsul, xidmət və funksionallıqların hazırlanması;

4.1.4. Fərdiləşdirilmiş xidmətlərin təqdim edilməsi (məzmun və reklamlar daxil olmaqla) – şəxsin fərdi ehtiyaclarına uyğunlaşdırılmış xidmətlərin təqdim edilməsi (tövsiyələr, kampaniyalar, məhsul şərtləri, fərdiləşdirilmiş məzmun, uyğunlaşdırılmış axtarış nəticələri və s.);

4.1.5. Keyfiyyətin ölçülməsi – Şirkət tərəfindən təqdim olunan xidmətlərin istifadəsi ilə bağlı analiz və ölçmə məqsədilə istifadə;

4.1.6. Ünsiyyət – toplanan informasiyanın informasiya sahibinə birbaşa müraciət etmək üçün istifadə edilməsi;

4.1.7. Etibarlı və dayanıqlı xidmətin təmini – fırıldaqçılıq, qeyri-qanuni fəaliyyət və ya sui-istifadə hallarının qarşısının alınması;

4.2. İnformasiyanın ilkin toplandığı məqsədlərdən başqa məqsədlər üçün emalı və ya istifadəsi emalın və ya istifadənin ilkin məqsədləri ilə uyğunluq təşkil etdikdə həyata keçirilir və belə halda, ilkin toplanmanı təmin edən hüquqi əsasdan başqa ayrıca hüquqi əsas, eləcə də buna istinadən digər hərəkətlərin icrası tələb olunmur.

## 5. İnformasiyanın yayılması, verilməsi və ya ötürülməsi

5.1. Toplanan informasiya qanunla qadağan edilmədiyi halda, Şirkət tərəfindən müvafiq şəxslərə aşağıdakı formada yayıla, verilə və ya ötürülə bilər:

5.1.1. Müqavilə əsasında Şirkətə mal (iş, xidmət) təqdim edilməsi zamanı mal (iş, xidmət) təqdim edən şəxslərlə;

5.1.2. Şirkətin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) ilə bağlı əməliyyatlarda iştirak edən şəxslərlə;

5.1.3. Müvafiq hüquqi aktlara, məhkəmə qərarlarına və ya müvafiq orqanların hüquqi qüvvəsi qanunvericiliklə müəyyən edilmiş tələblərinə riayət edilməsi, xidmət şərtlərinin pozulmasının, fırıldaqçılıq, təhlükəsizlik və ya texniki problemlərin qarşısının alınması və onların aşkarlanması, Şirkətin, istifadəçilərin və ya ictimaiyyətin hüquqlarının, mülkiyyətinin və ya təhlükəsizliyinin qorunması zamanı bu proseslərdə iştirak edən şəxslərlə;

5.1.4. "Ən az imtiyaz" prinsipi ilə məlumatla çalışma hüququ olan mütəxəssislərə, o cümlədən əmək müqavilələri və digər müqavilələrə əsasən çalışan fiziki şəxslər və təcrübəçilərlə;

5.1.5. Şirkətin xidmətlərindən istifadə ilə bağlı tendensiyaların, xidmət bununla bağlı statistik, anonim, sair ölçmə və analiz xarakterli digər məlumatların hazırlanması, paylaşılması zamanı üçüncü şəxslərlə;

5.1.6. Şirkətin birbaşa və ya dolayı vəzifələrinin və hüquqlarının icrasının təmin edilməsi məqsədilə Şirkətə nəzarət edən, Şirkətin nəzarət etdiyi və ya Şirkətlə ümumi nəzarət altında olan şəxslərlə;

5.1.7. Sığorta xidmətlərinin göstərilməsi, Şirkətin fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar digər şəxslərlə;

5.2. Həssas informasiyanın yayılması, verilməsi və ya ötürülməsi məlumat sahibinin qanunvericiliyə uyğun olaraq verdiyi razılıq əsasında, sığorta sirri hesab edilən məlumatların yayılması, verilməsi və ya ötürülməsi isə sığorta fəaliyyəti haqqında müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

5.3. Fərdi məlumatların yayılması, verilməsi və ya ötürülməsi ilə bağlı digər məsələlər fərdi məlumatlar haqqında müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

5.4. Bu maddədə göstərilən şəxslər Şirkətlə yaradılan münasibətlər çərçivəsində Şirkətin müəyyən etdiyi məqsəd və səlahiyyətlərə uyğun olaraq əldə etdikləri informasiyaları istifadə edə bilər və onları qanunla müəyyən olunmuş qaydada qorumağa borcludurlar.

5.5. Məlumatın ötürüldüyü tərəfin həmin məlumatların məxfiliyinin qorunmasına dair götürdüyü öhdəliyə görə, habelə istifadəçinin Şirkətin vebsaytından keçid edərək başqa vebsaytda etdiyi əməliyyatlar və daxil etdiyi məlumatların məxfiliyinə görə Şirkət məsuliyyət daşımır.

## 6. İnformasiyanın saxlanılması və məhv edilməsi

6.1. Toplanan informasiyanın saxlanma müddəti, informasiyanın növünə və Şirkətin istifadə zərurətinə əsaslanır. Toplanan informasiya bu Bəyannamədə göstərilən məqsədləri yerinə yetirmək üçün lazım olan müddət ərzində saxlanır. İnformasiyadan istifadə zərurəti bitdikdən sonra Şirkət tərəfindən bərpası mümkün olmayacaq formada məhv edilir.

6.2. Sığorta əməliyyatlarına dair informasiya azı qanunvericiliklə müəyyən edilmiş müddət ərzində saxlanılır.

6.3. Şirkət tərəfindən informasiyanın saxlanılması, arxivləşdirilməsi, itirilməsinin qarşısının alınması, məhv edilməsi, həmçinin icazəsiz dəyişdirilməsi ilə əlaqədar qanunvericiliyin tələbləri və informasiyanın təsnifatı nəzərə alınaraq məlumatların saxlanılması, arxivləşdirilməsi və (və ya) məhv edilməsini əhatə edən müvafiq nəzarət tədbirləri həyata keçirilir.

## 7. İnformasiyanın mühafizəsi

7.1. Qanunvericiliyin tələblərinə uyğun olaraq, müvafiq informasiya toplandığı andan mühafizə olunur və bu məqsədlə Şirkət tərəfindən bütün zəruri texniki və təşkilati tədbirlər həyata keçirilir.
7.2. İnformasiyanın mühafizəsi Azərbaycan Respublikası Mərkəzi Bankının informasiya təhlükəsizliyi üzrə tələblərinə uyğun olaraq təşkil edilir və təmin edilir.

## 8. İnformasiya sahibinin hüquqları

8.1. İnformasiya sahibi onun barəsində toplanmış və işlənmiş fərdi məlumatlar, onların əldə edilmə mənbəyi, hüquqi əsası haqqında məlumat ala bilər.
8.2. İnformasiya sahibi onun barəsində toplanmış və işlənmiş fərdi məlumatların dəqiqləşdirilməsini və qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, məhv edilməsini, habelə işlənməsinə qadağan qoyulmasını tələb edə, belə məlumatların toplanılmasına və işlənilməsinə etiraz edə bilər.
8.3. İnformasiya sahibi hüquqları pozulduqda, məhkəməyə müraciət edə bilər.

## 9. Yekun

9.1. Hazırki Məxfilik Bəyannaməsi Şirkət tərəfindən vaxtaşırı yenilənə bilər. Dəyişiklik Şirkət tərəfindən yenilənmiş Məxfilik Bəyannaməsinin elektron formasının müvafiq qaydada paylaşılacaq və bu Bəyannamənin müvafiq hissəsində "Son yenilənmə tarixi" yenilənəcəkdir.
9.2. Siyasətin qəbul edilməsi, onlara müvafiq əlavə və dəyişikliklərin edilməsi Şirkətin Direktorlar Şurasının qərarı ilə həyata keçirilir.
9.3. Siyasət qüvvəyə mindikdən sonra onun qanunvericilik aktlarında onun hər hansı müddəasının hüquqi qüvvəsinə təsir göstərən dəyişiklik olduğu təqdirdə Siyasətin qanunvericiliyə zidd olmayan müddəaları öz qüvvəsini olduğu kimi saxlayır.
9.4. Siyasətlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən tənzimlənir.

Tikilib 6 (altı) vərəqdə

"Xalq Sığorta" ASC-nin
Direktorlar Şurasının sədri

A.M.Məmmədli ____________